*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 160-164* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.160*

# Amerika poeziyasının ilk addımları

**Aynur Sabitova**
Filologiya elmləri doktoru, professor
Azərbaycan Dillər Universiteti

**Annotasiya.** Məqalədə 17-ci əsr Amerika poeziyasının ilk poetik təcrübələrdən – Enn Bredstret və Edvard Taylor kimi görkəmli nümayəndələrinin meydana çıxmasına qədər olan yolu izlənir. İlk müstəmləkəçilər yeni ərazidəki obyektiv çətinliklər və təhsil səviyyəsinin aşağı olması səbəbindən şeirlə məşğul ola bilmirdilər. Həmin dövrdə əsas şeir növü epitafiyalar – qəbirüstü yazılar idi. Onları heç bir başqa şeir növünə müraciət etməyən adamlar yaradırdı və onların özləri də həmin yazıları bədii əsər hesab etmirdilər, çünki puritan əxlaqı incəsənətin yalnız nəsihət funksiyasını qəbul edirdi. Əsrin ortalarında ilk tarixi şeirlər və teoloji şeirlər meydana çıxdı. Əsrin ikinci yarısına qədər müəyyən təcrübə toplandı və Amerika poeziyasının əsasını layiqincə qoyan ilk şairlər meydana çıxdı. Çətin şəraitdə yaranan ilk poetik nümunələr Amerika poeziyasının ilk addamları oldu və buradan başlayaraq bu poeziyanın özəllikləri formalaşmağa başladı.
**Açar sözlər:** Amerika ədəbiyyatı, XVII əsr, poeziya, puritanlar, Yeni İngiltərə

**Məqalə tarixçəsi:** göndərilib – 10.10.2024; qəbul edilib – 22.10.2024

# The first steps of American poetry

**Aynur Sabitova**
Doctor of Philological Sciences, Professor
Azerbaijan University of Languages

**Abstract.** The article traces the path of American poetry of the 17th century from the first poetic experiments to the appearance of such prominent representatives of this literature as Anne Bradstreet and Edward Taylor. The first colonists, due to objective difficulties in the new place and their low educational level, could not engage in poetry. At that time, the main type of poetry was epitaphs – headstone inscriptions. These were created by people who did not apply to any other form of poetry, and they themselves did not consider these writings as works of art, because Puritan morality accepted the function of art only as advice. By the middle of the century, the first historical poems and theological poems appeared. By the second half of the century, a certain experience was accumulated and the first poets appeared who laid the foundations of American poetry proper. The first poetic examples created under difficult conditions were the first steps of American poetry, and the characteristics of this poetry began to emerge.
**Keywords:** American literature, 17th century, poetry, Puritans, New England

**Article history:** received – 10.10.2024; accepted − 22.10.2024

## Giriş / *Introduction*

Amerika qitəsindəki ingilis koloniyalarında poetik əsərlər demək olar ki, ilk kolonistlər gələn vaxtdan yaradılırdı. Həmin dövrdə əsas şeir növü epitafiyalar – qəbirüstü yazılar idi. Onları heç bir başqa şeir növünə müraciət etməyən adamlar yaradırdı və onların özləri də həmin yazıları bədii əsər hesab etmirdilər, çünki puritan əxlaqı incəsənətin yalnız nəsihət

funksiyasını qəbul edirdi. Epitafiya mərhumun ləyaqətli həyat yolu keçdiyini, insan təbiətinin zəiflikləri üzərində qələbə çaldığını, həyatın sınaqlarına mərdliklə dözdüyünü göstərməliydi. Bu kimi tələblər janrın hüdudlarından kənara çıxmağı tamamilə qeyri-mümkün edirdi.

O dövrdə daha iki poetik janra – dini poema və tarixi hekayət – müraciət olunurdu. Bunlarda da normativlik var idi. Bu əsərlərdə əslində Amerikadakı koloniyaların ilk illərinin əsas hadisələri haqqında qafiyələnmiş şəkildə məlumat verilir və ya onların əldə rəhbər tutduğu etik anlayışlar izah edilirdi. Mətnlərin bədii dəyəri yüksək deyil və bu da aydındır. Koloniyaların ilk sakinlərinin əksəriyyətinin təhsil səviyyəsi yüksək olmaması, yeni torpaqlarda ciddi həyat çətinlikləri, gündəlik mövcudluq uğrunda təbiətlə mübarizə və ən əsası, puritan dünyagörüşləri dünyəvi ədəbiyyatla məşğul olmağa yer qoymurdu.

**Əsas hissə / *Main Part***

Ədəbiyyat əslində moizənin, teoloji polemikanın bir növü kimi çıxış edirdi. Koloniyaçıların hətta ən istedadlılar, öz yazılarını estetik baxımdan nəzərdən keçirmirdilər və əlbəttə, yaradıcılıq prosesində əsərin bu cəhətinə ciddi diqqət yetirmirdilər. Şeirləri bir qayda olaraq din xadimləri yazırdılar. Belə yazarların çox, ya az olduğunu söyləmək çox çətindir, çünki onlar nəinki yazdıqlarını çap etdirmir, hətta bunu bir çox hallarda gizli saxlayırdılar. Məsələn, o dövrün ən görkəmli şairi Edvard Teylor ölümündən sonra əsərlərinin çap edilməməsini vəsiyyət etmişdi [2, s.245].

XVII əsrdə amerikadakı koloniyalarda yaradılan poetik mətnlərinin xüsusi əhəmiyyəti var, çünki bütün çatışmazlıqlarına baxmayaraq, yalnız onları, müəyyən istisnalarla, bədii əsər hesab etmək olar. Başqa sözlə, sözün əsl mənasında Amerika ədəbiyyatı məhz onlardan başlayır.

Əlbəttə, bu mətnlər bir qayda olaraq kamil və bədii baxımdan müstəqil deyildilər və bunun da, artıq qeyd etdiyimiz kimi, obyektiv səbəbləri vardı, bunlarda da biri mütaliə dairəsinin məhdudluğu və bundan irəli gələrək əsasən Bibliya və antik nümunələrə istinaddır. Bunu epitafiyanın timsalında bariz görmək mümkündür. Onlarda hətta adın akrostix və anaqram vasitəsilə fərqləndirilməsi kimi priyomlara da müraciət olunurdu. Bəzən anaqram mətnə qəribə kinayə gətirirdi və bu, müəllifin istəyindən asılı olmayaraq baş verirdi. Puritanlar üçün adın transendental mənası vardı. Onlar özlərini ətraf mühit içərisində bütün varlığa ad verən Adəm kimi hiss edirdilər (bu, müəyyən mənada, həqiqətən də belə idi: yeni torpaqlar, bitki və heyvanat aləminin gəldikləri yerdəkilərdən kəskin fərqi, ətrafdakı ərazilərdəki obyektlərin heç birinin onların dilində adının olmaması və s.) və bu baxımdan verilən ad qətiyyət ixtiyari ola bilməzdi. Anaqram adda nəsə bir gizli məna aşkarlamağa imkan verirdi. Buna görə də puritan şairi üçün o, dərin mənalı idi, halbuki müasir oxucu üçün formalist priyomdan başqa bir şey deyil. Koloniya dövrü şairlərinin epitafiya və elegiyalarında anaqramların çoxluğu onları ingilis "metafizika poeziyası" ilə yaxınlaşdırır. Lakin bu bənzərliyi tam təsadüfi adlandırmaq olar, çünki bütün XVII əsr ərzində koloniyalarda yaradılmış poetik əsərlərin məzmun baxımdan Donn, Marvell və Herbert lirikası ilə kəsişmə nöqtələri əsasən yoxdur [2, s.219]. Amerika müəlliflərinin şeirlərində ingilis metafiziklərinin əsərlərində olduğu kimi nə fəlsəfi məna, nə də incə söz oyunu yox idi, çünki müəlliflər qarşılarına belə məqsəd ümumiyyətlə qoymurdular. Anaqramların özləri əsas etibarilə ya vəsiyyətnamə, gündəlik, xronikalar və s. kimi yazılara bəzəyir, ya da qəbir daşlarında həkk olunurdular. Bu kimi şeirlər koloniyaların hamısında yazılsa da, yalnız Yeni İngiltərədə yaradılanlar müəyyən estetik dəyərə malikdirlər. Bu da yalnız Yeni İngiltərənin koloniyalar arasında aparıcı rolu ilə deyil, həm də puritan əqidəsinin koloniyalarda şəksiz üstünlüyü ilə izah olunur.

Epitafiyalardan fərqli olaraq didaktik və dini şeirlər, avtobioqrafik və tarixi poemalar koloniyalarda kifayət qədər məşhur olan konkret şəxslər tərəfindən yaradılmışdır. Bu kimi əsərlər həm holland, həm də ingilis dillərində yazılırdı. Holland dilində yazanlardan ən məşhuru tacir Yakob Steedam (Jacob Steendam, 1616-1672) idi. O, 1651-ci ildə Amerikaya köçməzdən əvvəl, hələ vətəndə olarkən "Bül-

bülün nəğmələri" adlı ilk lirik şeirlər kitabını çap etdirmişdi. Yeni Dünyada isə o, əsasən satirik əsərlər yazır, hollandlara pis münasibət bəsləyən ingilisləri tənqid edirdi [3]. "Yeni Niderlandın tərifi" poemasında (1661) antik dövrün ənənələrindən çıxış edərək yeni ərazilərin dünyanı yaradan dörd ünsürünü – hava, od, su və torpağını – təsvir edir.

Bu kimi təsviri poemalar koloniyaçı müəlliflərin yaradıcılığında xeyli çox yer tuturdu. Lakin o dövrün gündəliklər, yol qeydləri, coğrafi qeydlər və s. janrlarından fərqli olaraq şeirlə yazılmış əsərlərdə utopik və satirik elementlər aşkar görünür. Tarixi mövzulardakı poemalarda Amerika qitəsinin Allahın iradəsi ilə açılması ideyası irəli sürülür və bu, Məsihin ikinci zührü və yer üzərində xristianlığın yeni minilliyinin bərqərar olması kimi qələmə verilirdi. Bu ideya daha bariz Con Uintropun 1630-cu ildə yeni gələn koloniyaçılara ünvanlanmış məşhur moizəsində öz əksini tapmışdı. Sonralar bu fikri Edvard Conson və daha sonra Kotton Mezer təkrarlamışdılar.

Yeni İngiltərə və onun tarixinin erkən mərhələsini təsvir edən bu kimi geniş poetik mətnlərdə dini patetika ilə yanaşı əsas hadisələrin təsviri də verilirdi, ciddi puritan normalarını pozanlar satira atəşinə tutulurdu. Faktoqrafiya, moizə və satiranın bu kimi birləşməsini Edvard Consonun (Edward Johnson, 1598-1672) "Yeni İngiltərədə sion müdriklərinin heyrətamiz möcüzələri" kitabında görmək olar (1654, London). Conson nəsr və nəzmi növbələşdirərək koloniyaçı puritanların mənəvi məziyyətlərini mədh edir, onların həyatda missiyasının müstəsnalığına inanır və bidətləri kəskin tənqid edir. Amma hazırkı dövrdə Consonun əsəri tamamilə başqa tərəfdən dəyərləndirilir – əsər Massaçusetsdə koloniyaların yarandığı ilk dövrlərin bir növ xronikasıdır.

Satirik yönüm Bencamin Tompsonun (Benjamin Tompson, 1642-1714) "Yeni İngiltərə böhranı" (1676) əsərində daha bariz təzahür edir [4]. Tompson koloniyaların məişətinin canlı təsvirini verir, hindularla müharibələri təsvir edir, amma poemada əsas yeri ilk koloniyaçılara xas olan qatı dindarlığın zəifləməsinə yönəldir və zənginliyə, rahatlığa can atma cəhdlərini ciddi tənqid edir.

Tomsonu narahat edən fikirlər S.Syuollun gündəliyinin poetik fraqmentlərində və U.Bredfordun yazdığı bir neçə elegiyada da əks olunur.

Koloniyaçıların şüuru üçün tipik olan təsəvvürlərin ən bitkin sistemi Maykl Uiqqlsuortun (Michael Wigglesworth, 1631-1705) poeziyasında öz əksini tapmışdır [5]. Onun "Məşhər günü" (The Day of Doom, 1662) adlanan əsas əsəri mömin dindarların etiqadını möhkəmlətməyə və puritan doqmalarını pozanları damğalamağa yönümlənmişdir. Poema həcmcə çox böyükdür – o, hər birində on dörd sətir olan 224 bənddən ibarətdir. Bədii cəhətdən zəif olsa da, əsər böyük uğur qazanmışdı və bu da onda puritan ideologiyasının görünməmiş ardıcıllıqla verilməsi ilə izah olunur. Uiqqlsuort günahlıların cəzalandırılmasının dəhşətli təsvirini verir və sonda möminlərin cənnətdə necə rahatlıq tapacağını göstərir.

1662-ci ildə koloniyaların ərazisində möhkəm quraqlıq oldu. Elə həmin il Uiqqlsuort daha bir böyük poema yazdı. Poema "Allahın Yeni İngiltərə ilə ixtilafı" adlanırdı. Lakin birinci poemadan fərqli olaraq bu əsər yalnız 200 il sonra işıq üzü gördü. Əsər alleqorikdir. Müəllifə görə bəla insanlara dindən uzaqlaşdıqlarına, günahlar etdiklərinə görə göndərilib. Axı bu yerlər əvvəllər İblisin təsiri altında idi. Bura gələn əməlisaleh adamlar özləri ilə ilahi nuru gətirməli idilər. Lakin sınaqlara dözməyib günah işlətdiklərinə, imanları möhkəm olmadığına görə onlar cəzalandırılıblar.

Uiqqlsuort öz əsərlərini "sadə şeir" adlandırırdı. "Sadəlik" anlayışı koloniya dövrü ədəbiyyatının estetikası üçün ən mühümlərdən idi. Müəllif dini, mənəvi həqiqətləri çatdırmağa çalışırdı, özü də onlar bilavasitə sadəliyində təzahür etməliydi. Bu kimi məqsədlərə çatmaq üçün isə ən əsas vasitə məhz "sadə şeir" idi.

Bu tələb birmənalı şəkildə "Massaçusets psalmları kitabı"nın (Bay Psalm Book, 1639) tərtibatçılarında biri olan Con Kotton (John Cotton, 1584-1652) tərəfindən ifadə olunmuşdur [6]. Kitaba yazdığı ön sözündə o bildirir: "Əgər bəziləri bu şeirlərin onlar istəyən kimi xoş və gözəl olmadığını hesab etsələr, qoy yada salsınlar ki, İlahi taxtının bizim əllərimizlə vurulmuş bəzəklərə ehtiyacı yoxdur" [1, s.299]. Xeyirxah əməllərdən danışan və ya müqəd-

dəslikdən misallar gətirən əsərləri onlar Müqəddəs kitaba əlavə kimi qavrayırdılar. Müəllif vasitəçidən başqa bir şey deyildir və onun vəzifəsi vəhyləri din qardaşlarına çatdırmaqdan ibarətdir. Lakin bu tələb heç də həmişə gözlənilmirdi. Sözügedən kitabın hazırlanmasında bilavasitə iştirak etmiş Riçard Mezer (yeri gəlmişkən, bu kitab koloniyalar ərazisində çap olunmuş ilk kitabdır) ümid edirdi ki, onda müəyyən dərəcədə sənətkarıq da təzahür edəcək.

Bir müddət sonra "sadəlik" mömin puritan olan Teylorun poeziyasında metaforik mürəkkəblik şəklində təzahür edəcək. Bu, Avropa metafiziklərinin təsiri altında baş vermirdi. Bunun əsas səbəbi "sadə şeir"in ali mənəvi həqiqətin açarını özündə saxlayan ətraf gerçəkliyi bir növ simvol kimi qavrayan puritan şüuru ilə ziddiyyətə girməsində idi.

Bir qədər sonra Conatan Edvard puritan dünyagörüşünün bu xüsusiyyətini daha aydın izah etdi. O bildirdi ki, təbii aləm transendental aləmin eynisi və insan idrakının həmişə məhdud olmasına baxmayaraq onun sirrinin açarıdır. 1674-cü ildə isə Bostonlu pastor Coşua Mudi moizələrinin birində həm "metaforik ifadələrin, həm də allüziyaların" zəruriliyindən danışmışdı, çünki insan dilində "mənəvi mənada bütün işlərimizə nüfuz edən" Allah ideyasını ifadə etməyin başqa imkanları yoxdur. Bu kimi verilənlər istər-istəməz fiqural poetikanı doğururdu.

XVII əsr Amerika koloniyalarının ən görkəmli şairləri Anna Bredstritin "seyr etmə" və Edvard Teylorun "meditasiya" janrları puritan dünyaduyumunu çatdıran "metaforik ifadə" forması kimi yarandılar. O, yalnız mürəkkəb obrazlılığa yer qoymur, hətta ilkin olaraq onu nəzərdə tuturdu, bu şərtlə ki, o, fiziki və ya mənəvi reallıqdan yaransın və transendental mənalarında şərh olunsun. Allahın gözə görünmədən görünən aləmdə mövcudluğu "sadə şeir" normaları ilə çatdırıla bilməzdi.

## Nəticə / *Conclusion*

Beləliklə, çətin şəraitdə yaranan ilk poetik nümunələr Amerika poeziyasının ilk addamları oldu və buradan başlayaraq bu poeziyanın özəllikləri formalaşmağa başladı. Bu özəlliklər poetik dilin sadəliyi, bilavasitə hisslərin və gerçəklikdə baş verənlərin əks etdirilməsində, yazılı ədəbiyyatda qəliz Bibliya obrazları ilə yanaşı gerçəklikdə müşahidə olunan hadisələrin işlədilməsində, ibtidai "realizmlə" yanaşı transendental məqamların olması və s. təzahür edir. XIX əsrdə Amerika romantizminin fərqləndirici xüsusiyyətlərindən olan "yerli kolorit", "transendentalizm" və s. başlanğıcını XVII əsr poeziyasından alır.

## Ədəbiyyat / *References*


1. The Heath Anthology of American Literature. Lexington, Mass. – Toronto, 1990, v. I.
2. История литературы США. – Москва: Наследие, 1997.
3. http://www.poemhunter.com/i/ebooks/pdf/jacob_steendam_2012_5.pdf
4. http://www.jstor.org/stable/362705?seq=1#page_scan_tab_contents
5. http://www.pbs.org/outofthepast/past/p1/wigg.html
6. http://historyofmassachusetts.org/reverend-john-cotton/

**Первые шаги американской поэзии**

**Айнур Сабитова**
Доктор филологических наук, профессор
Азербайджанский университет языков

**Резюме.** В статье рассматривается путь первых поэтических опытов американской поэзии XVII века в лице вышедших на арену таких известных представителей как Энн Бредстред и Эдвард Тэйлор. Первые колонисты вследствие объективных трудностей на новых территориях и низкого уровня образования не имели возможности заниматься поэзией. В те времена основным родом поэзии были эпитафии – надгробные надписи. Их создавали люди, не связанные с другими видами поэзии, да они и сами не считали эти надписи литературными источниками, потому что пуританское население признавало только назидательную функцию единственным видом творчества. В середине века на арену вышли первые исторические и теологические стихи. Ко второй половине века был накоплен определённый опыт, определивший приход на арену первых поэтов, достойно заложивших основы американской поэзии. Первые поэтические образцы стали в трудных условиях первыми шагами и началом формирования собственно американской поэзии.
**Ключевые слова:** американская литература, XVII век, поэзия, пуритане, Новая Англия